# "Suverenlik yolçuları"

**Müasir tariximizdə ən önəmli, ən yaddaqalan, ən qürurlu hadisə Azərbaycan Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin sərkərdəliyi altında erməni qəsbkarlarını 30 ilə yaxın işğalda saxladıqları torpaqlardan qovub çıxardaraq Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam təmin etməsidir. Ərazi bütövlüyümüzün bərpası və suverenliyimizin təmin olunması tariximizin ən şərəfli səhifəsidir.**

Tariximizin bu şərəfli səhifəsi geniş şəkildə təbliğ olunur. Bu mövzu daim yaradıcı insanların diqqətini özünə cəlb edib. Müəllifləri Vəfaddin İbayev və Mirhüseyn Nəbiyev olan "Suverenlik yolçuları" olan kitabı da ərazi bütövlüyümüzün və süverenliyimizin təmin edilməsi mövzusuna həsr olunub.

Kitab doğma vətənimizin azadlığı, müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda gedən qanlı döyüşlərdə qəhrəmancasına döyüşərək şəhid olmuş hərbçilərimizə həsr olunub. Müəlliflər cəsur oğullarımızın qəhrəmanlığından, igidliyindən söz açarkən onların şəhidlik zirvəsinə ucalmaqlarını dəyərli sözlərlə, fikirlərlə oxuculara çatdırırlar. Torpaq uğrunda canından keçmiş igidlərimizi ehtiramla yad edirlər.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş kitabda Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı bir çox fərman və sərəncamların ətraflı şərhinə və izahına da yer verilib. "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununun ətraflı şərh edilməsi, izah olunması kitabı hüquqi baxımdan daha da zənginləşdirmiş, dəyərini yüksəltmişdir.

Bu günə qədər ərazi bütövlüyümüzün bərpası və suverenliyimizin təmin olunması mövzusunda onlarla kitab yazılıb. Yenə də yazılacaqdır, çünki bu, tariximizin qiymətli bir parçasıdır. Qarabağ döyüşlərində xalqımızın cəsur oğullarının göstərdiyi igidlik və qəhrəmanlıq bu kitablarda geniş şəkildə əks olunur. Qəhrəmanlıq tariximizin şərəfli səhifələrini özündə əks etdirən bu kitablar həmişə oxucular tərəfindən rəğbətlə qarşılanır, böyük maraqla oxunur.

***"Azərbaycan"***

Azərbaycan.-2025.- 28 sentyabr (№208).- S.12.